UOT 32:93/94

XALİDƏ MƏLİKOVA
Azərbaycan Respublikasinin Pezidenti yanında
Dövlət İdarəçilik Akademiyası
khalida.malikova@yahoo.de

DÜNYA İQTİSADİ BÖHRANI VƏ "ƏRƏB BAHARI" HADİSƏLƏRİNİN YAXIN ŞƏRQDƏ GEOSİYASİ KONFİQURASİYANIN DƏYİŞMƏSİNƏ TƏSİRİ

DOI: https://doi.org/10.36719/2708-065X/109/197-205

Dünyanın geosiyasi əhəmiyyətə malik, zəngin enerji resurslarının olduğu və karvan yollarının keçdiyi Yaxın Şərq regionu yüzilliklər boyu böyük güclərin rəqabət, mübarizə və müharibə meydanları olmuşdur. Yalta-Potsdam sisteminin süqutundan sonra regionda tarazlıq və nisbi sabitlik əsaslı şəkildə pozulmuş, 2001-ci il 11 sentyabr hadisələrindən sonra isə ABŞ regionu bütünlüklə öz nəzarətinə götürmək uğrunda mübarizəyə başlamışdı. Lakin regionda oturuşmuş siyasi rejimlərin ciddi müqavimətinə rast gələn Vaşinqton yeni taktiki yollar axtarmalı olmuşdu. Dünya iqtisadi böhranı Yaxın Şərqdə siyasi və sosial-iqtisadi ziddiyyətləri kəskinləşdirdikdən sonra məhz Qərbin planlarına uyğun olaraq "ərəb baharı" adı altında xalq hərəkatlarına start verilmişdi ki, nəticədə bu region uzunmüddətli xaosa qərq olmuşdur. Bununla belə, ABŞ nə "Böyük Orta Şərq layihəsini" reallaşdıra bilməmiş, nə də "ərəb baharı" adı altında regiona "demokratiyanın gətirilməsinə" nail olmamışdır. Məqalədə bu regionda gedən və qüvvələr nizamını dəyişən hadisə və proseslər fakt və materiallara əsasən araşdırılır.

Açar sözlər: Yaxın Şərq, ABŞ, Rusiya, regional aktorlar, dünya iqtisadi böhranı, "ərəb baharı", geosiyasi vəziyyət, hegemonluq, siyasi rejim, enerji amili, demoqrafik situasiya, rəqabət.

Giriş. XX-XXI əsrlərin kəsişməsində beynəlxalq aləmdə baş verən qlobal dəyişikliklər dünya nizamını yeni keyfiyyət halına gətirdi. Yalta-Potsdam geosiyasi sisteminin süqutundan sonra ABŞ-ın hegemon gücə çevrilməsi və təkqütblü dünya qaydasının formalaşması beynəlxalq münasibətlərə əsaslı şəkildə təsir göstərdi, yeni ittifaqlar meydana gəldi, forma və məzmun dəyişiklikləri baş verdi. Dünyanın və onun sərvətlərinin yenidən bölüşdürülməsi uğrunda mübarizə müharibələrə çevrilməklə ilk növbədə Yaxın və Orta Şərq ölkələrinə, Afrika qitəsinin şimalında yaşayan xalqlara fəlakət və faciələr gətirdi. Dünyanın bu hissəsi geosiyasi/loqistik əhəmiyyətinə və iqtisadi/enerji sərvətlərinə görə xüsusilə II Dünya müharibəsindən sonra dünya güclərinin rəqabət, mübarizə və müharibə meydanına çevrilmişdi ki, hazırda da davam etməkdədir.

Yer planetinin sərvətləri hədsiz olsa da, imperialisti, müstəmləkəçi və işğalçı güclər bu təbii sərvətlərin daha asan və sürətlə mənimsənilməsinə üstünlük vermişlər ki, məhz bu Yaxın və Orta Şərq regionunun hərb meydanına çevrilməsinə gətirib çıxarmışdı. SSRİ-nin dağılması nəticəsində beynəlxalq aləmdə yaradılmış nisbi sakitlik pozuldu. ABŞ-da 2001-ci il sentyabrın 11-də törədilmiş terror aktları isə Vaşinqtona ilk növbədə Yaxın Şərq ölkələrindən Əfqanıstan və İraqı hədəfə götürməyə imkan verdi. Şərqin "açarları" olan bu iki ölkənin hədəfə götürülməsi bu ölkələrin geosiyasi və enerji resursları baxımından əhəmiyyəti ilə bağlı idi, beynəlxalq terrorizmə qarşı mübarizə bu məqsədi reallaşdırmaq üçün istifadə olunan "pərdədən" başqa bir şey deyildi.

Əsas hissə. Məlum olduğu kimi, Türkiyə-Pakistan xətti 1978/1979-cu illər İran inqilabı nəticəsində qırılmış və ABŞ-ın onilliklər boyu İranla bağlı həyata keçirdiyi siyasət onun istədiyi səmərəni verməmişdi. Məhz buna görə də Vaşinqton "11 sentyabr"ın verdiyi fürsətdən yetərincə yararlanmaq, beynəlxalq terrorizmə qarşı mübarizə adı altında Yaxın Şərqi tam olaraq "öz himayəsinə" götürmək qərarına gəlmişdi ki, zaman da bu imkanı reallaşdırmaq üçün əlverişli idi. ABŞ-ın Yaxın Şərqdə reallaşdırdığı 1991-ci il və 2003-cü il Körfəz müharibələri, 2001-2021-ci il Əfqanıstan əməliyyatları Vaşinqtona "Yeni Orta Şərq layihəsini" istədiyi şəkildə reallaşdırmağa imkan vermədi. Regional və regiondan kənar aktorların çoxluğu, gücü və müqaviməti Ağ Evin regionda həyata keçirmək istədiklərinin yolunda keçilməsi xüsusilə çətin olan əngəllər idi. Qərb, Rusiya, Türkiyə və milli kütləvi in-

formasiya vasitələrində Vaşinqtonun Yaxın Şərqlə bağlı planları olduqca ciddi tənqid və ittiham hədəfinə çevrilmişdi.

Yaranmış şəraitdə ABŞ-ın 43-cü, 44-cü və 45-ci prezidentləri Kiçik Buş, Barak Obama və Donald Trampın Yaxın Şərq siyasəti qeyri-ardıcıl və ziddiyyətli xarakter nümayiş etdirməyə başladı, bununla belə, bu regionu əldən verməmək birmənalı olaraq kredoya çevrilmişdi. Təkcə 2003-2016-cı illərdə ABŞ-ın regionda həyata keçirdiyi avantürist strategiya 6-7 trly. dollara başa gəlmişdi ki, Prezident D.Tramp bu regionla bağlı strateji xətdən geri çəkilmək qərarına gəlmiş və bunu rəsmi olaraq bəyan etmişdi [1]. Halbuki 2001-2009-cu illərdə ABŞ-ın prezidenti olmuş Corc Buş (kiçik) atasının strategiyasını həyata keçirmək üçün bütün qətiyyəti ilə Yaxın Şərqə müharibə elan etmişdi.

"Yeni Orta Şərq layihəsi"nin reallaşması gedişində ABŞ-ın qarşılaşdığı müqavimət Ağ Evi yeni yollar axtarmağa vadar etmişdi. Təsadüfi deyildi ki, Qərb və rus mətbuatında 2009-2013-cü illər dünya böhranının ABŞ tərəfindən süni şəkildə yaradıldığı ilə bağlı informasiyalar geniş şəkildə yayılmaqda idi. Böhranın bütün dünya miqyasında yayılmasına baxmayaraq "Ərəb baharı"na bənzər hadisələr nə Avropada, nə postsovet məkanında, nə də dünyanın digər yerlərində baş verməmişdi. Təkcə bu faktın özü Yaxın Şərq ölkələrində sosial ziddiyyətlərin kənardan qızışdırıldığı nəticəsində gəlmək imkanı verir. Başlıca məqsəd Yaxın Şərq ölkələrindəki siyasi rejimlərin Vaşinqtonun istəklərinə uyğun rejimlərlə əvəz edilməsinə hesablanmışdı. "Böyük resessiya (tənəzzül)"adlanan 2009-2013-cü illər böhranının simptomları hələ minilliyin əvvəllərindən etibarən özünü göstərməyə başlamışdı. Qərb ekspertləri dünyanın əvvəllərdə mümkün olmayan dünya böhranına doğru getməsinə dair proqnozlar səsləndirirdilər, halbuki ABŞ dünyanı hədələməkdə olan böhrana qarşı konkret addımlar atmırdı.

Tədqiqatçılar 2004-2007-ci illəri Yaxın Şərqdə nisbi sabitlik illəri kimi nəzərdən keçirirdilər, bununla belə, məhz həmin illərdə region ölkələrində mövcud siyasi rejimlər mövcudluqlarını davam etdirmək üçün lazım olan potensiallarını itirmişdilər. Dünya iqtisadi böhranının əlamətləri özünü Qərb ölkələrində, ilk növbədə, ABŞ-da göstərsə də, böhran öncəsi şərait Yaxın Şərqdə də yetişməyə başlamışdı. Ekspertlərə görə, böhranın ilkin əlamətləri özünü ABŞ-da 2007-ci ilin avqustundan etibarən göstərməyə başlamışdı. Böhran ilk olaraq ipoteka banklarının iflasa uğramasından başlamış, bir ilə yaxın dövr ərzində 50-dən yuxarı iri bank və maliyyə təşkilatları iflasa uğradıqlarını bəyan etmişdilər. ABŞ Prezidenti B.Obamanın 2011-ci ildə yaratdığı Konqres Komissiyası böhranın ipoteka bazarı və banklarının fəaliyyəti nəticəsində yarandığını müəyyənləşdir-mişdi. Qısa müddətə Qərbdə 200 milyondan yuxarı iş yerlərinin bağlanması, inflyasiyanın görünməmiş miqyas alması, dünya ticarəti tempinin kəskin şəkildə aşağı düşməsi və sosial müavinətlərin ləğv edilməsi böhranın kəskinləşdiyinin göstəriciləri idi. Böhranın təsirləri yalnız Yaponiya və Rusiyada özünü nisbətən zəif şəkildə göstərdi. Rusiyalı ekspertlər ABŞ-ın böhran vasitəsilə Avropaya təsir göstərməyə çalışdığını qeyd etsələr də, başlıca hədəfin Yaxın Şərq olduğu tezliklə məlum oldu. Bu regionun 5 ölkəsi neft istehsalçısı idi və geosiyasi rəqabət "neft dollarina" sahiblənmək uğrunda gedirdi [17].

Məhz belə bir şəraitdə 4 valyutanın müharibəsi əlamətləri özünü göstərməyə başladı. Dollar, avro, iyen və yuan arasında mübarizədə dollar öz üstünlüyünü göstərdi. Bu valyutalara malik ölkələr öz pullarının qiymətini aşağı salmaqla daha çox qazanmağa və böhrandan çıxmağa çalışırdılar. Ekspertlərə görə, valyutalar arasında rəqabət ticarət müharibəsinə gətirib çıxarmışdı və bunun başlıca günahkarı ABŞ və Böyük Britaniya dövlətləri idilər. Ingiltərə yenidən Yaxın Şərqə qayıtmağı hədəfləmişdi. Böhran dövründə "böyük yeddilərin" və "iyirmilərin" dəfələrlə keçirilən görüşlərində dünya iqtisadiyyatının sabitləşdirilməsi məqsədi ilə müxtəlif layihələr irəli sürülsə də, müsbət nəticələr, dünya ticarətinin və iqtisadi inkişafın əlamətləri yalnız 2013-cü ildən etibarən özünü göstərməyə başlamışdı [20], baxmayaraq ki, davamlı xarakter daşımışdı.

Böhranın başlanmasından xeyli sonra iqtisadçılar onun süni xarakterinə diqqət yetirməyə başladılar. Hətta böhranın başladığı ilk dövrlərdə - 2009-cu il yanvarın 7-də "Cinxya" agentliyi böhrana görə, açıq şəkildə Vaşinqtonu ittiham etmişdi. Çünki bu iqtisadi böhran ilk növbədə Çinin və Yaxın Şərq ölkələrinin iqtisadiyyatına ağır zərbə vurmuş, sosial-iqtisadi gərginliyin güclənməsinə gətirib çıxarmışdı. Rusiyalı iqtisadçılardan B.Saqalov böhranın xeyli müddət davam edəcəyini qeyd edərək üç məsələni diqqətdə saxlamağı tövsiyə edirdi: böhrandan sora sürətli bərpa, böhranın 2-ci dalğasına hazır olmaq və dünya iqtisadiyyatının durğunluq vəziyyətində saxlanması. İqtisadçılar böhranın nəti-

cələrinin aradan qaldırılmasına minimum on ildən də çox müddət lazım gələcəyini və ağrılı nəticələrini qeyd edirdilər [9, s.14-17].

Dünya iqtisadi böhranının Yaxın Şərq və Şimali Afrika ölkələrinə təsiri həm böhran dövründə, həm də xeyli sonralar elmi-siyasi fikirdə ciddi müzakirələri şərtləndirdi, onun süni olaraq yaradıldığı, regionun yaşadığı sosial-iqtisadi və siyasi proseslərin nəticəsi olduğu, xaosla idarə edilmə taktikasının tətbiq edildiyi kimi məsələlər ciddi müzakirə mövzularına çevrilmişdi. Qeyd edək ki, Qərbin açıq şəkildə müdaxilə etdiyi məqamlar Liviya və Suriya hadisələrində özünü göstərdi, çünki bu ölkələrdə siyasi rejimlərin güclü olması hadisələrin ilk günlərindən aydın şəkildə görünürdü. Təsadüfi deyildi ki, Liviyada Qəddafi rejimi yalnız Qərbin müdaxiləsi nəticəsində devrilmişdi, Suriyada isə ABŞ istəklərini reallaşdıra bilmədi, Bəşər Əsəd rejimini devirmək mümkün olmadı. "Ərəb baharı" və sonrakı hadisələrin təhlili göstərir ki, Qərb, ilk növbədə ABŞ Yaxın Şərqdə istədiklərini tam olaraq reallaşdıra bilmədi və hazırda İsrailin əli ilə buna nail olmağa çalışmaqdadır. Qərbin bu regiona gətirmək istədiyi demokratiya insanlara fəlakət və faciələr yaşatmaqdadır. Regionun müasir hərbi-siyasi mənzərəsi hətta II Dünya müharibəsindəki vəziyyətlə müqayisə edilə bilməz.

Tədqiqatçılar Mərakeşdən başlayıb İrana qədər uzanan, 20-yə qədər ölkəni bərbad vəziyyətinə salan "ərəb baharı" hadisələrinin səbəbləri məsələsinə toxunarkən üç başlıca faktoru əsas götürürlər: iqtisadi, siyasi və dini faktorlar. hazırkı dövrün reallıqlarından çıxış etsək, bunlar daxili faktorlar kimi nəzərdən keçirilə bilər [16], halbuki fikrimizcə, regionda baş verənlərdə xarici faktorların təsiri də əhəmiyyətli dərəcədə böyükdür. Çoxsaylı sosial şəbəkələrdə yer alan materialların təhlili göstərir ki, Liviyada əhalinin orta və yuxarı yaşlı əhalisi M.Qəddafinin dövründə əhalinin daha yaxşı yaşadığını və ölkədə sabitliyin olduğunu qeyr etməklə bərabər, ABŞ və Fransanı regionda baş verənlərə görə lənətləyir, çıxış yolunu görmədiklərini bildirirdilər.

"Ərəb baharı" hadisələrinin iqtisadi amillərlə bağlı olması bir qayda olaraq problemlə bağlı araşdırma aparanların hamısı tərəfindən etiraf olunurdu. 2009-2013-cü illər dünya iqtisadi böhranı ərəb şərqində daha acınacaqlı vəziyyət yaratmışdı. Ərəb ölkələrində baş verən hadisələrin səbəbləri ümumi xarakter daşısa da, ayrı-ayrı ölkələrdə fərqli xüsusiyyətlərə malik olmuşdu [23, s.91-92], belə ki, Yaxın Şərq ölkələrində 2008-ci il iqtisadi tənəzzüllə başlamış, neft qiymətləri kəskin şəkildə azalmış, xarici kapital sürətlə Şərq ölkələrini tərk etməyə başlamış, Avropa və ABŞ şirkətlərində çalışanlar iş yerlərini itirmiş, iqtisadi çöküş başlamış, həyat şəraitinin sürətlə bahalaşması isə sosial gərginliyin güclənməsinə gətirib çıxarmışdı. Ərəb ölkələrində işsizliyin sayı rekord həddə çatmış, yəni ölkə əhalisinin 30 faizini keçmişdi [7].

Yaxın Şərq ölkələrində başlanan xalq hərəkatlarının siyasi səbəbləri və kökləri daha dərin idi. Qeyd edək ki, silki monarxiya və diktatura rejimlərinin mövcudluğu Qərb ölkələrinin region rəhbərlərinə etdikləri təzyiqləri bəzən əhəmiyyətsiz edirdi. Bu mənada ABŞ hətta müttəfiqləri olan Misir və Səudiyyə Ərəbistanı rəhbərlərinə də istədiklərini qəbul etdirə bilmirdi. Təsadüfi deyildi ki, Qərb ölkələrindən ABŞ, İngiltərə, Fransa, Almaniya və s. dövlətlər "ərəb baharı" hadisələrindən xeyli əvvəllər Şərq qarşı informasiya müharibəsinə başlamış, region ölkələrində siyasi və iqtisadi vəziyyətin ağırlığını dünya böhranında deyil, demokratiyanın olmamasında, siyasi rejimlərin çürüklüyündə, korrupsiya və rüşvətxorluğun baş alıb getməsində gördüklərini bildirmişdilər. Məhz buna görə də tədqiqatçılar "ərəb baharı" hadisələrini ümumi adla "internet inqilabı" adlandırmışdılar. Məhz buna görə də 2011-ci ilin əvvəllərində İranda iğtişaşlar başlanarkən ilk növbədə internet söndürülmüş və sosial şəbəkələr bağlanmışdı. Digər mühüm səbəb isə, siyasi rejimlərin uzun ömürlü olması idi. Belə ki, Müəmmər Qəddafi 42 il, Hüsnü Mübarək 30 ildən çox, Ben Əli 23 il, Hafiz Əsəd və oğlu Bəşər Əsəd birlikdə 39 il hakimiyyət başında olmuşdular. Səudiyyə Ərəbistanı, Mərakeş, Qətər, Birləşmiş Ərəb Əmirlikləri və Küveytdə monarxiya rejimləri mövcud idi [8, s.246-254]. Bu ölkələrdə siyasi rejimlər II dünya müharibəsindən sonrakı dövrləri xatırladırdı.

Müsəlman ölkələrindəki xalq hərəkatlarında dini amilin rolu özünü ilk növbədə məzhəb ayrılığında göstərirdi və Qərbin imperialist dairələri tarix boyu dini ayrı-seçkilikdən öz hakimiyyətlərini davam etdirmək, müstəmləkələri əldə saxlamaq üçün istifadə etmişdilər. Məzhəb ayrılığı islam dövlətlərində qeyri-sabitliyin başlıca səbəblərindən biri sayılırdı. Məlum olduğu kimi, Bəhreyn əhalisinin 60 faizi şiə müsəlman, qalan hissəsi isə sünnülərdən ibarətdir. Suriyada B.Əsəd ailəsi ələvi olduqları halda, ölkə əhalisinin çox böyük hissəsi sünnü məzhəbinə aiddir. Xalq hərəkatlarının gedişin-

də Misir, Liviya, Tunis və Yəməndə radikal islamçı partiyalar hakimiyyət başına gəlmişdilər. Azərbaycanlı müəlliflərdən S.İbrahimova yazırdı ki, ayrı-ayrılıqda ərəb ölkələrində baş verən hadisələr müxtəlif daxili faktorlardan, xüsusilə dini təriqətlərin və tayfa düşmənçiliyinin nəticələrindən asılı olmuşdu. Belə ki, Əlcəzairdə, Tunisdə və Misirdə hadisələrin kökündə sosial-iqtisadi vəziyyətdən narazılıqlar dururdusa, Liviyada və Yəməndə hərəkat xalqın etirazlarından daha çox, hakimiyyətin bölüşdürülməsini hədəfə alan tayfa separatçılarının mövcud rejimlə mübarizəsinə bənzəyirdi. Müəllif "Əl Qaidə" kimi dini qruplaşmaların fəaliyyətinin daxili situasiyanın və qarşıdurmanın dərinləşməsində imkanlarını xüsusi qeyd edirdi [4, s.134]. Analoji vəziyyətin müasir dövrdə də davam etdiyini görürük.

Sosial-iqtisadi və siyasi problemlərdən narazılıqlar ərəb ölkələrində tez-tez rast gəlinən hallar idi, lakin siyasi rejimlər bunların qarşısını dərhal alır, genişlənməsinə imkan vermirdilər. Kütləvi narazılıqların baş verdiyi ilk ölkə Tunis olmuşdu, belə ki, küçə ticarəti ilə məşğul olan 26 yaşlı Məhəmməd Buəzizi adlı sakin yerli polis tərəfindən döyülmüş və malları müsadirə olunmuşdu. Onun şikayəti rədd edildikdən sonra 2010-cu il dekabrın 18-də üstünə benzin tökərək özünü yandırmışdı. Sosial şəbəkələr və internet tərəfindən geniş yayılan bu hadisə rejimdən narazı olanları, xüsusilə işsizlikdən və yoxsulluqdan əziyyət çəkən gənc və orta yaşlı əhalini ayağa qaldırdı. Xalq hərəkatına qarşı hərbi qüvvə tətbiqi 223 nəfərin ölümü ilə nəticələnsə də, bütün ölkəni bürüyən iğtişaşların qarşısını almaq mümkün olmadı. Ölkə Prezidenti Z.Bin Əli 2011-ci ilin yanvarın 14-də Səudiyyə Ərəbistanına qaçmaqla canını qurtara bildi. Hadisələrin gedişində İŞİD-in təsiri sürətlə artmağa başladı[19] ki, hazırda ona qoşulanların böyük hissəsinin Tunis vətəndaşları olması qeyd edilir. Bununla belə, hakimiyyətə gələn yeni qüvvələr verdikləri vədlərə baxmayaraq ölkədə həyat şəraitinin yaxşılaşması, işsizlik və yoxsulluğyn aradan qaldırılmasında ciddi uğurlar qazana bilmədi. Tədqiqatçılar "qəzəb günü" ("cümə günü" nəzərdə tutulur-müəl.) başlanan "Yasəmən inqilabı"nın genişlənməsində daxili amillərlə yanaşı, xarici amillərin də mühüm rol oynadığını qeyd edirdilər. Ümumiyyətlə, "Ərəb baharı" hadisələrinin belə sürətlə yayılmasında xəbər agentliklərinin, sosial şəbəkələrin və "Feysbukun" rolu olduqca böyük olmuşdu. Xüsusilə, Əl-Cəzirə və Əl-Ərəbiyyə televiziya kanalları baş verən hadisələri bütün dünyaya və regiona elə inandırıcı şəkildə nümayiş edirdilər ki, "bunlar əsil filmlərə bənzəyirdi" [15, s.119]. Rusiyalı müəlliflər obyektiv olaraq yazırdı ki, etirazlar çoxdan yetişmişdi, lakin informasiya texnologiyalarının rolu olmadan xalq hərəkatları bu qədər kütləvi və təşkilatlanmış forma ola bilməzdi [11, s.86]. Dünyanın aparıcı informasiya kanallarına və xəbər agentliklərinə Qərbin himayədarlıq etməsi "ərəb baharı"nda xarici amilin təsirinin nə dərəcədə böyük olduğunu deməyə imkan verir. Tunisdə vəziyyəti sabitləşdirmək və vətəndaş müharibəsinin başlanmasına imkan verməmək üçün 2013-cü ilin yazında milli dialoqa ölkədəki başlıca siyasi qüvvələr dəvət olundular və "Tunis kvarteti" (4-lük) dialoqu yarandı. 2014-cü ilin dekabrında Beji Kaid əs-Sebsi prezident seçildi. Ölkədə belə tezliklə sabitliyin yaradılmasına görə, 2015-ci ilin oktyabrında "Kvartet milli dialoqu" Nobel sülh mükafatına layiq görüldü [18].

Tunisin ardınca xalq hərəkatı Əlcəzairdə başladı. Belə ki, 2010-cu il dekabrın 28-dən etibarən polislə etirazçılar arasında toqquşma sürətlə bütün ölkəyə yayıldı, lakin Tunisdən fərqli olaraq bu ölkədə vəziyyət daha tez nəzarətə götürüldü. Bununla belə, ölkə prezidenti A.Buteflika ciddi güzəştlərə getməyə məcbur oldu, ölkədə 19 il davam edən fövqəladə vəziyyət rejimi ləğv edildi, sosial-iqtisadi islahatlar elan olundu, işsizliyin aradan qaldırılması, əmək haqlarının artırılması istiqamətində tədbirlər həyata keçirildi, siyasi rejim yumşaldıldı, siyasi partiyaların fəaliyyətinə imkan verildi və s. [13, s.37-38].

Kütləvi informasiya vasitələrinin yaydığı məlumatlar çox tezliklə digər ərəb ölkələrində də xalq kütlələrinin ayağa qalxmasına öz təsirini göstərdi. Belə ki, 2011-ci il yanvarın ortaları üçün Livan, İordaniya, Mavritaniya, Sudan, Oman və Yəmində genişlənən xalq hərəkatları çoxsaylı insan tələfatlarına gətirib çıxardı. Livan hökuməti sosial-iqtisadi sahələrdə güzəştlərə getməyə məcbur oldu, İordaniya kralı II Abdulla hökuməti tam şəkildə istefaya göndərdi. Mavritaniya və Sudanda siyasi rejimlə müxalifət arasında mübarizədə hakimiyyət qüvvətli çıxsa da, ölkədə islahatların keçirilməsi istiqamətində bir sıra addımlar atıldı. 2011-ci ilin iyulunda Cənubi Sudan müstəqil dövlət kimi BMT-nin tərkibinə daxil oldu. Xalq hərəkatının təzyiqi altında Oman sultanı Kabus bin Seyid siyasi və iqtisadi güzəştlərə getməyə vadar oldu, parlamentin hüquqları genişləndirildi, hökumətdə ciddi dəyişik-

liklər edildi [2], sosial sahədə mövcud problemlərin və işsizliyin aradan qaldırılması istiqamətində islahatlara başlandı.

Yəməndə hadisələrin daha dramatik xarakter alması ölkənin vətəndaş müharibəsi ərəfəsində olması ilə əlaqədar idi. Belə ki, ölkə prezidenti Əli Abdullah Saleh vaxtı ilə iki yerə bölünmüş ölkədə vəziyyətə hakim deyildi. Ölkənin cənubu husilərin əlində idi, onlar isə nəinki mərkəzi hökumətə tabe olmurdular, hətta 2015-ci il hərbi əməliyyatlarında ölkənin paytaxtı Səma şəhərini də ələ keçirmişdilər. Vəziyyətin belə hal alması Səudiyyə Ərəbistanının rəhbərliyi altında husilərə qarşı koalisiyanın yaradılmasına gətirib çıxardı. Koalisiyaya Qətər, Bəhreyn, Birləşmiş Ərəb Əmirlikləri, Mərakeş, Misir, Sudan və s. ölkələrin hərbi qüvvələri daxil idi. Husilərin şiə təriqətinə mənsub olduqlarını nəzərə alsaq müharibə çox tezliklə dini xarakter aldı. Devrilmiş prezident Ə.A.Saleh də husilərin tərəfində dayanmışdı. Vətəndaş müharibəsi və müdaxilə xarakteri almış hərbi əməliyyatlar koalisiya qüvvələrinə uğur gətirmədi. "Ərəb baharı" nəticəsində yaranmış hakimiyyət dəyişikliyi ölkədə anarxiya və xaosu daha da dərinləşdirdi. İranın husiləri dəstəkləməsi ABŞ və İngiltərənin hərbi əməliyyatlara qarışmasına gətirib çıxardı, bununla belə, husiləri məğlub etmək mümkün olmadı [12]. Qeyd edək ki, 2011-ci il hadisələrində qadınların azadlığı və hüquqları uğrunda mübarizə aparan hüquqşünas xanım Tavakul Əbdul-Salam Karman Nobel mükafatına layiq görülmüşdü. Yəmənlilər onu "inqilabın anası" və "dəmir qadın" adlandırıdılar ki, qarşılaşdığı çətinliklərə baxmayaraq iradəsindən dönməmişdi.

Müsəlman ölkələri içərisində yalnız Səudiyyə Ərəbistanı böhrandan itkisiz şəkildə çıxdı ki, bu iki amil ilə sıx bağlı olmuşdu, birincisi, bu ölkədəki siyasi rejim kifayət qədər möhkəm idi, ikincisi, Səudiyyə Ərəbistanı ilə ABŞ arasında müttəfiqlik münasibətləri mövcud idi. Təsadüfi deyildi ki, 2011-ci il yanvarın sonlarında Ciddədə başlayan etirazlar qısa müddətə hərbi qüvvənin müdaxiləsi ilə yatırıldı, lakin ölkə insan hüquqlarının pozulmasına görə Qərb tərəfindən ittiham edilmədi və təzyiqlərə məruz qalmadı. "Ərəb baharı" hadisələrində Səudiyyə Ərəbistanı əhalisinin 8-10 faizini təşkil edən şiələr mühüm rol oynamışdı, hətta bu hadisələr zamanı şiə və sünnü elitasının birgə çıxış etdiyi hallar da olmuşdu. "Feysbuk gəncləri"nin kral Abdullah ben Əzizə müraciəti təsirsiz qalmadı. Kralın fərmanı ilə sosial təminat və gənc ailələrə yardım məqsədi ilə 34 mlrd. doll. yardım ayrıldı, dövlət qulluqçularının maaşları 15 faiz artırıldı, amnistiya verildi, qadınlara ictimai həyatda iştirak etmək, dövlət qulluğuna girmək, avtomobil idarə etmək hüququ verildi, 30 nəfər qadın, o cümlədən, bir şiə qadın Kral Şurasına daxil edildi, sosial-iqtisadi islahatlar aparıldı və s. [10]

Ərəb ölkələrindən Cibuti, Mərakeş və İraqda başlanan xalq hərəkatları siyasi rejimlərdə dəyişikliklərə səbəb olmasa da, sosial-iqtisadi və siyasi xarakterli dəyişikliklər edildi. Mərakeş kralı VI Məhəmməd və İraqın Baş naziri Nuri-əl Maliki tərəfindən sosial-iqtisadi islahatların keçirilməsi və işsizliyin aradan qaldırılması sahəsində ciddi addımlat atıldı. Xalq etirazları Küveytdə də siyasi dəyişikliklərə səbəb oldu, korrupsiya və rüşvətxorluqda ittiham edilən bir neçə nazir həbs edildi. Siyasi rejim yumşaldıldı, sosial-iqtisadi islahatların həyata keçirilməsi sahəsində addımlar atıldı. 2011-ci il fevralın ortalarında Bəhreyndə başlanan iğtişaşlar da uzunmüddətli olmadı. Kral Həmid ibn İsanın dəvəti ilə Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirliyi Bəhreynin paytaxtı Manamaya 1500 nəfərlik hərbi hissələr yeridildi. Dövlət çevrilişində ittiham edilən 8 müxalifət üzvü ömürlük həbs edildi. Bununla belə, hakimiyyət müəyyən islahatlar keçirməyə məcbur oldu, kral hər ailəyə 1000 dinar yardım göstərilməsinə dair fərman verdi. Qeyd edək ki, ABŞ-ın 5-ci donanması Bəhreyn sahillərində lövbər salmışdı və kral hakimiyyətinə dəstək verirdi [6].

Ərəb ölkələrindən Misir, Liviya və Suriya "ərəb baharı" hadisələrinin gedişində ağır faciələr və insan tələfatları ilə üzləşməli oldular. Misir və Suriyada xalq hərəkatları 2011-ci il yanvarın 25-26-da başladı və bütün ölkəyə yayıldı. Prezident Hüsnü Mübarəkin istefasından sonra "Müsəlman qardaşları" təşkilatının rəhbərlərindən Məhəmməd Mursi hakimiyyətə gətirildi, lakin Qərb nəinki istəyinə nail olmadı, əksinə ciddi radikal qüvvə ilə üzləşdi ki, bu 2013-cü ilin iyulunda hakimiyyət çevrilişi ilə nəticələndi. Müdafiə naziri Əbdül Fəttah əl-Sisi ölkənin prezidenti seçildikdən sonra hərbi diktatura gücləndirildi, xalq hərəkatı güc yolu ilə yatırıldı, müxalifət rəhbərləri aradan götürüldü. Xalq hərəkatının gedişində Qahirədəki İsrail səfirliyinin darmadağın edilməsi, bayraqlarının ayaqlanması və anti-İsrail şüarlarının səsləndirilməsi ABŞ və İsrailə bir çağırış və təhdid idi iki, nəticələri özünü çox da gözlətmədi [22, s.313-314].

Suriya Yaxın Şərq regionunda geosiyasi maraqların toqquşduğu mühüm ölkələrdən biri idi ki, burada ABŞ-ın, Rusiyanın, Türkiyənin, İranın, İraqın və İsrailin maraqları toqquşurdu. Bu ölkədə davam edən 48 illik fövqəladə rejim həm Hafiz Əsədin, həm də Bəşər Əsədin hakimiyyətlərinin davam etdirilməsinə xidmət edirdi. Suriya SSRİ dövründə, sonra isə Rusiya ilə müttəfiqlik münasibətlərinə malik idi. Suriyada Rusiya və İranın maraqları üst-üstə düşürdü. Suriyada xalq hərəkatının genişlənməsində internet, xüsusilə "Feysbuk" mühüm rol oynadı, digər ərəb ölkələrində baş verən hadisələr Qərb və onun himayədarlıq etdiyi informasiya kanalları vasitəsilə sürətlə tirajlanmağa və siyasi rejimə qarşı mübarizəyə çağırışlar edilməyə başladı. Yaranmış vəziyyətdə B.Əsəd rejimi güzəştə getdi, 48 il davam edən fövqəladə vəziyyət ləğv edildi, bəzi tədbirlər görüldü, əhalini sakitləşdirməklə yanaşı, cəza tədbirləri gücləndirildi [7].

Qərbin hərtərəfli dəstəyinə və yardımlarına baxmayaraq, tezliklə məlum oldu ki, İran və Rusiyanın müdafiə etdiyi rejimi çökdürmək mümkün olmayacaqdır. Məhz elə bir şəraitdə Qərbin dəstəklədiyi və silahlandırdığı qüvvələrlə hakimiyyət arasında vətəndaş müharibəsi başladı. Ölkədə yaşayan kürdlərin də müstəqillik arzuları ilə müharibəyə başlaması Türkiyəni ehtiyatlı olmağa vadar etdi, PPK/YPQ-yə qarşı hərbi əməliyyatlar intensivləşdi, ölkədə islamçı ekstremistlərin mövqeyi olduqca gücləndi və onların hakimiyyətə gəlmək imkanlarının artması Qərb tərəfindən daha ciddi təhlükə kimi qiymətləndirildi. 2011-ci ilin payızı üçün müxtəlif yönümlü Suriya Azadlıq Ordusu yaradıldı, terrorçu qruplar da hakimiyyətə qarşı müharibəyə qoşuldular və xaricdən ciddi şəkildə dəstəklənməyə başladılar [7].

Suriyada hərbi əməliyyatların uzanması vətəndaş müharibəsinin geosiyasi müharibəyə çevrilməsinə gətirib çıxardı. Yaranmış şəraitdə Ərəb Dövlətləri Liqası Suriyanın təşkilatda üzvlüyünü dayandırdı. Tezliklə Suriyanın ətrafında ərəb dövlətlərinin özlərinin birləşdiyi, ABŞ və Türkiyənin də daxil olduğu anti-Suriya cəbhəsi formalaşdı. Əks tərəfdə isə Suriyanı müdafiə edən Rusiya-Çin-İran alyansı formalaşdı və Dəməşq ciddi şəkildə silahlandırılmağa və müdafiə edilməyə başladı. Belə vəziyyətdə anti-Suriya koalisiyası parçalandı, ABŞ, İsrail və Qətər "oyundan çıxdılar". İsrail rəhbərləri bildirmişdilər ki, "Bəşər Əsəd Tel-Əvivin dostu deyil, onun düşmənləri isə daha pisdir"[21].

Bəşər Əsəd hakimiyyəti geosiyasi konfiqurasiyanın belə qarışmasından məharətlə istifadə etdi. Belə ki, kürdlər hərbi əməliyyatlara qarışan kimi, B.Əsəd Suriyanın şimalında və şimal-şərqində onlara avtonomiya verdi. "Kürd kartı" Türkiyənin planlarını qarışdırdı, bu layihəni vaxtı ilə Vaşinqton da müdafiə edirdi. Türkiyənin cənubunda kürd dövlətinin yaradılması ehtimalı davamlı müharibələr və ölkənin parçalanması anlamına gəlirdi. Zaman keçdikcə Türkiyə Suriyadakı hadisələrə daha fəal surətdə qarışmağa başladı. 2015-ci ilin iyununda Türkiyə Prezidenti R.T.Ərdoğan bəyan etdi ki, Suriya və İraqın şimal ərazilərində Kürd dövlətinin yaradılması ilə heç zaman razılaşmayacaqdır, çünki bu, Türkiyənin milli təhlükəzisliyini təhdid edir. Bu, Suriyanın şimalında yerüstü və hava əməliyyatlarının başlanacağına açıq siqnal idi. Türkiyə bu məsələdə Rusiya və İranla da mövqelərini razılaşdırmışdı. 2012-ci ildə Türkiyə-Suriya sərhədlərində başlanan toqquşmalar 2014-2015-ci illərdə açıq hərbi əməliyyatların başlanmasına gətirib çıxardı [5; 24] ki, bu, Suriyada "ərəb baharı" hadisələrinin sonluğu və yeni mərhələnin başlanması demək idi. Suriya məsələsində Yaxın Şərqdə iki güclü hərbi-siyasi qruplaşma üz-üzə dayanmışdı.

Yaxın Şərq ölkələrində baş verən və baş verməkdə olan hadisələrdə enerji amili xüsusilə mühüm əhəmiyyətə malik idi. Belə ki, Aİ-nin enerji idxalı kəmərlərinin şaxələndirilməsi strategiyası elan olunduqdan sonra bu sahədə bir sıra layihələr meydana gəlməyə başladı ki, bu məsələyə Suriyanın münasibəti həm Türkiyənin, həm də ərəb ölkələrinin maraqlarına cavab vermirdi. 2009-cu ildə Qətər Avropaya qaz tədarükünü həyata keçirmək üçün ərəb dövlətlərini nəzərdə tutulan marşrut üzrə birləşdirəcək qlobal layihə ilə çıxış etdi. Kəmər Qətər-Səudiyyə Ərəbistan-İordaniya-Suriya-Türkiyə istiqaməti üzrə Avropanın cənubuna qədər uzanmalı idi. Lakin Suriya prezidenti B.Əsəd bunun əleyhinə çıxdı, çünki bu, onun müttəfiqi Rusiyanın maraqlarına zidd idi. Məlum olduğu kimi, Avropanın başlıca neft-qaz tədarükçüsü Rusiya idi, əgər Qətərin təklifi qəbul edilsə idi, Rusiya ağır zərbə ala bilərdi [14, s.127-129]. Təsadüfi deyildi ki, adları qeyd edilən dövlətlər bundan sonra Suriyaya qarşı sərt mövqe sərgiləməyə başladılar, 2012-ci il sərhəd toqquşmaları və kürd məsələsinin ortaya atılmasından sonra Türkiyə ilə Suriya arasında elan olunmamış müharibə başladı.

"Ərəb baharı" hadisələrindən ən ağır zərbini Liviya Cümhuriyyəti aldı. Sosial-iqtisadi vəziyyətinə görə, Liviya digər ərəb ölkələrində fərqlənirdi, əhalisinin həyat şəraiti yoxsulluq səviyyəsində xeyli yüksək idi. 2011-ci il fevralın 17-də ölkənin paytaxtı Tripolidə başlana etiraz aksiyaları digər şəhərlərə yayılsa da, ardıcıl deyildi və hakimiyyət çətinlik çəkmədən bunları aradan qaldıra bilirdi. Lakin kifayət qədər müstəqil və iradəli olan Liviya rəhbəri Müəmmər Qəddafi Qərb, xüsusilə ABŞ üçün arzuedilməz şəxs idi. Təsadüfi deyildi ki, Liviyada hakimiyyət çevrilişi məhz Qərbin müdaxiləsindən sonra həyata keçirildi. Liviya müxalifəti məhz NATO qüvvələrinin, xüsusilə Fransanın müdaxiləsi və silahlandırmasından sonra uğur qazana bildi. M.Qəddafi hakimiyyətin təhvil verilməsi ilə bağlı müxalifətin və Qərbin bütün təkliflərini qətiyyətlə rədd etmişdi. Liviyada başlanmış vətəndaş müharibəsi tezliklə 30 min nəfərdən yuxarı insanın ölümünə gətirib çıxardı. Vətəndaş müharibəsinin gedişində hakimiyyətə sadiq qüvvələrin üstünlüyü və üsyan ocaqlarının bir-birinin ardınca yatırılması Fransanın açıq şəkildə Liviyaya müdaxiləsinə gətirib çıxardı [25, s.124-127]. Lakin M.Qəddafi rejiminin devrilməsi Liviyada elə bir xaos və klanların ölkədaxili mübarizəsini şərtləndirdi ki, bu günədək davam etməkdədir.

Nəticə. Yaxın Şərqin coğrafiyasını, geosiyasi situasiyasını və qüvvələr nisbətini əsaslı şəkildə dəyişən "ərəb baharı" hadisələri ilk növbədə islam dünyasında birliyin və həmrəyliyin olmadığını, açıq və gizli düşmənçiliyin davam etdiyini, islam ölkələrinin öz daxili problemlərini kənardan müdaxilə zamanı həll edə bilmədiklərini, ümumiyyətlə isə Qərb imperializmi qarşısında aciz olduqlarını əyani şəkildə göstərdi. Müsəlman ərəb ölkələri, bütövlükdə isə islam dünyası Ərəb Dövlətləri Təşkilatı və İslam Əməkdaşlıq Təşkilatı kimi böyük qurumlara malik olmalarına baxmayaraq, onların problemlərinin BMT strukturlarında və Avropa İttifaqı rəsmiləri arasında müzakirəsi ən böyük ədalətsizlik, dövlətlərin ərazi bütövlüyünün, suverenliyinin və müstəqilliyini pozulması deməkdir.

"Ərəb baharı" hadisələri Yaxın Şərq və Afrikanın şimalındakı bütün ölkələrə faciələr, fəlakətlər və səfalət gətirdi. Bu hadisələr nəticəsində regionun insan ehtiyatları potensialına ağır zərbə vuruldu, belə ki, təkcə 2010-cu ilin oktyabrından 2012-ci ilin dekabrınadək təxmini hesablamalara görə, region 800 min nəfərdən yuxarı insan itirdi, 2015-ci il üçün hərbi əməliyyatlardan canlarını qurtararaq müxtəlif ölkələrə üz tutan miqrantların sayı 1,5 mln. nəfəri keçdi. 2010-2020-ci illər arasındakı dövrdə "ərəb baharı"nın baş verdiyi ölkələrə Dünya bankının hesabatına görə, təxminən bir trilyon dollardan yuxarı zərər vurulmuşdur, yalnız Liviya və Yəmənin yenidən qurulmasına 100 mlrd. dol. yuxarı vəsait lazım gələcəkdir [3]. "Ərəb baharı" nəticəsində qlobal imperializm Yaxın Şərqdə onilliklər boyu arzusunda olduğu xaosa nail oldu ki, onun başa çatmasına imkan verməyəcəklər.

ƏDƏBİYYAT

1. Əlimusa İbrahimov. Yaxın Şərqdə uduzan Amerika: itirilən trilyonlar və xaos siyasəti // Sputnik. az, 16.02.2018. - sputnik.az/20180216/meqsed-qırğın-salmaqdır-41408779/html [10.05.2025].
2. Ərəb baharı: dünyanı dəyişmək planı – Xrolologiya / Axar.az xəbər portalı, 2015.12.19. - https:/axar.az/news/planet/76306.html/19.12.2015/ [10.05.2025].
3. "Ərəb baharı"ndan "ərəb müsibəti"nə / Kaspi.az, 25.12.20 - https://kaspi.az/az/ereb-baharindan-ereb-musibetine [10.05.2025].
4. İbrahimova S. "Ərəb baharı"nın səbəbləri və gözlənilməz nəticələri // İpək yolu jurn., 2020, №4, s.132-134.
5. Автеков В.А. Сирийский вопрос в турецком контексте. Regnum, 25.12.2011.
6. Арабская весна/translated.turbopages.org/proxy-u/ [10.05.2025].
7. «Арабская весна» и ее последствия / Дзен, 24 апреля 2022. - https://dzen.ru/a/YmWDfjYob2lH_dm4 [10.05.2025].
8. Вавилов А.И. Катаклизмы и «арабской весны». М.: изд. Китони, 2019, 760 с.
9. Долгов Б.В. Феномен «Арабской весны» 2011-2016: причины, развитие, перспективы. Тунис, Египет, Ливия, Сирия, Алжир. М.: Алгоритм, 2017, 200 с.
10. Гасымов Н.А. Саудовская Аравия после арабской весны: внутриполитические процессы и перспективы реформ // Сравнительная политика, 2014, 3(17), с.152-158. -

https://cyberleninka.ru/article/n/saudovskaya-araviya-posle-arabskoy-vesny-vnutripoliticheskie-protsessy-i-perspektiva-reform [10.05.2025].
11. Исаев Л.М., Шышкина А.Р. Египетская смута XXI века. М.: 2012.
12. История противостояние хуситов с коалицией арабских и западных стран / tass.ru, 12.01.2024. - tass.ru/info/19718555 [10.05.2025].
13. Желтов В.В., Желтов М.В. Алжир: реформирование как проявление арабской весны // Вестник КемГУ, 2015, №2(62), с.33-38.
14. Звягельская И.Д. Ближневосточный клинч: конфликты на Ближнем Востоке и политики России. М.: 2014, 208 с.
15. Колобов О.А., Шульц Э.Э. Арабская весна: технологии бунта. Политика, анализ, хроника, прогноз. Журнал Политической философии и социологии. 2014, к.122, с.119-126.
16. Мир не так скоро оправится от финансового кризиса 2008 года. Российская газета, 2013, 14 ноября.
17. Мировой экономический кризис (2008-2013). - https://ru.wikipedia.org/wiki [10.05.2025].
18. От «арабской весны» до третьей мировой войны / tass.ru. - tass.ru/spec/arabspring [10.05.2025].
19. Пуныкин Н.И. Причины и конфликтогенные последствия «арабской весны». (2010-2012) // Инновационные авпекты развития науки и техники, 2021, с.27-37. - https://cyberleninka.ru/article/n/prichiny-i-konfliktogennye-posledstviya-arabskoy-vesny-2010-2012 [10.05.2025].
20. Развитие финансового кризиса началось в США / Независимая газета, 2013, 20 декабря.
21. Сирия в огне: провал арабской весны: /rus.azatutyun.at/f/25299829.html [10.05.2025].
22. Турк С.Н., Верюгин И.В. Арабская весна в Египте: причины и последствия: Эпоха науки, 2020, № 22, с.313-317.
23. Фитуни Л.Л. Экономические причины и последствия «арабской весны» // Проблемы современной экономики, 2012, №1(41), с. 90-97
24. Участие Турции и гражданской войне в Сирии / translated.turbopogos.org/Proxy-n/en-ru [10.05.2025].
25. Эль Мюрид. Если завтра война. «Арабская весна» и Россия. М.: РОССПЭН, 2013, 346 с.

ХАЛИДА МАЛИКОВА
Академия государственного управления при Президенте Азербайджанской Республики

ВЛИЯНИЕ МИРОВОГО ЭКОНОМИЧЕСКОГО КРИЗИСА И СОБЫТИЙ «АРАБСКОЙ ВЕСНЫ» НА ИЗМЕНЕНИЕ ГЕОПОЛИТИЧЕСКОЙ КОНФИГУРАЦИИ НА БЛИЖНЕМ ВОСТОКЕ

Регион Ближнего Востока, имеет геополитическое значение, богат энергетическими ресурсами, где пересекаются караванные пути, был и остается на протяжении столетий местом соперничества, борьбы и войн великих держав. После распада Ялтинско-Потсдамской системы равновесие и относительная стабильность в регионе были в корне нарушены, а после событий 11 сентября 2001 года США начала борьбу за установление полного контроля над регионом. Однако Вашингтону, столкнувшемуся с серьезным сопротивлением со стороны устоявшихся политических режимов в регионе, пришлось искать новые тактические пути. После того, как мировой экономический кризис обострил политические и социально-экономические противоречия на Ближнем Востоке, именно в соответствии с планами Запада были запущены народные движения под названием «Арабская весна», что в конечном итоге погрузило регион в долгосрочный хаос. Однако США не смогли ни реализовать «Проект Большого Ближнего Востока», ни «принести демократию» в регион под видом «Арабской весны». В статье на основе фактов и материалов рассматриваются события и процессы, происходящие в этом регионе и меняющие баланс сил.

Ключевые слова: Ближний Восток, США, Россия, региональные акторы, мировой экономический кризис, «арабская весна», геополитическая ситуация, гегемония, политический режим, энергетический фактор, демографическая ситуация.

KHALIDA MALIKOVA
Academy of Public Administration
under the President of the Republic of Azerbaijan

THE IMPACT OF THE GLOBAL ECONOMIC CRISIS AND THE "ARAB SPRING" EVENTS ON THE CHANGING GEOPOLITICAL CONFIGURATION IN THE MIDDLE EAST

The Middle East region, with its geopolitical significance, rich energy resources, and caravan routes, has been a centuries-long arena of competition, struggle, and war among great powers. After the collapse of the Yalta-Potsdam system, the balance and relative stability in the region were fundamentally disrupted, and following the September 11, 2001 events, the US began to struggle to take the entire region under its control. However, encountering strong resistance from entrenched political regimes in the region, Washington had to seek new tactical paths. After the global economic crisis exacerbated political and socio-economic contradictions in the Middle East, popular movements under the guise of the "Arab Spring" were launched in line with Western plans, plunging the region into long-term chaos. Nevertheless, the US failed to realize the "Greater Middle East Project" or bring "democracy" to the region under the guise of the "Arab Spring". The article examines the events and processes changing the balance of power in the region based on facts and materials.

Keywords: Middle East, USA, Russia, Regional actors, World economic crisis, “Arabian Spring”, geopolitical situation, hegemony, political regime, energy factor, demographic situation, competition.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 may 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 may 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Qurban Məmmədov, t.e.d. Sani Hacıyev.